# SOSİOLOGİYA

## QLOBALLAŞMA PROSESİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ SOSİAL NƏTİCƏLƏRİ

**A.İ.KOSAYEV**
*Bakı Dövlət Universiteti*
*shahla75@rambler.ru*

Müasir qloballaşma coxistiqamətli prosesdir. Onun əsas məqsədi iqtisadi inkişaf yolu ilə inteqrasiya və sosial transformasiyanı həyata keçirməkdir. İqtisadi inkişaf səviyyələrinə görə dövlətlər varlı, orta və yoxsul qruplara bölünür.

Yoxsulluq qloballaşma üçün təhlükəli haldır, onun aradan qardırılması dövlətlərarası münasibətlərin genişlənməsinin vacib şərtidir.

Bu şərt əsasında qloballaşmanın ümumi istiqaməti müəyyən olunmuşdur. Bu istiqamətdə inkişaf öz müsbət bəhrəsini verir. Qloballaşmanın ilkin mərhələsi mürəkkəb, ziddiyyətli prosesdir. Bu mərhələdə müharibələr, münaqişələr ola bilər. Lakin bunlar müvəqqəti haldır, çünki dünyada insanlar dinc, sabit inkişafa üstünlük verirlər. Qloballaşma prosesində iqtisadi münasibətlərdə və onun vasitələrində əsaslı dəyişiklik yaranır. İnkişaf etmiş dövlətlərin istehsal münasibətləri modeli digər dövlətlər tərəfindən yerli şəraitə uyğun tətbiq edildikdə daha səmərəli nəticə əldə olunur.

Müasir qloballaşma nəticəsində «demokratikləşmənin üçüncü dalğası» güclənir. Qeyri-demokratik rejimlər demokratik rejimlə əvəz olunur. Demokratik idarəetmə rejimi dünyanın bir çox dövlətlərində dərin kök salır. Müasir dünyada üç proses bir-birini tənzim edir: qloballaşma, dünyanın yeni nizamı və demokratiya. Qloballaşma dövründə dünyanın yeni nizamda qurulmasının əsas şərti demokratiyadır. Demokratiya nəticəsində ölkədə siyasi həmrəylik yaranır. Demokratiya qloballaşmadan əvvəlki tarixi dövrlərdə mövcud olmuşdur. Müasir dövrdə qloballaşma demokratiyanın coğrafi məkan dairəsini genişləndirir. Əlverişsiz şərait üzündən demokratiyanı reallaşdıra bilməyən ölkələr qloballaşma şəraitində demokratiyanı inkişaf etdirmək imkanı əldə edir. Qloballaşma prosesində geridə qalan ölkələrə demokratiyanın xaricdən gətirilməsi ideyası ilə razılaşmaq olmaz. Demokratiya milli mentalitet, milli dəyərlərlə qarşılıqlı inkişafda daha möhkəm ola bilər. Xaricdən gətirilən demokratik rejim hakimiyyət dəyişikliyi nəticəsində tez dağılır.

Qloballaşma nəticəsində cəmiyyətin sosial strukturu dəyişir, yük-

sək intellektual səviyyə tələb edən peşə və ixtisaslar meydana gəlir. Elmi-texniki biliyi, informasiya təhlili qabiliyyətinə malik olan elita təbəqəsi formalaşır. Elita təbəqələri dövlətlərarası inteqrasiyada mühüm rol oynayan aparıcı qüvvəyə çevrilir.

Qloballaşma müxtəlif coğrafi məkanlarda yerləşən əhalinin məşğuliyyətinin, sosial strukturunun, istehsal və istehlakının eyniliyini tələb etmir. Qloballaşma universallığı saxlayır, lakin bu universallaşma prosesində vahid ümumdəyərlər meydana gəlir. Ümumdəyərlər tədricən dünya dövlətlərinin transmilli korporasiyalarının fəaliyyətlərini qlobal problemlərin və milli maraqların həllinə yönəldir. Beləliklə, ümumi fəaliyyət beynəlxalq əməkdaşlığı möhkəmləndirir. Deməli, qloballaşma dövlətlərin, millətlərin fövqündə duran proses olub, onların fəaliyyətində bir-birinə qarşı olan tendensiyaları aradan qaldırır, Yer planetinin taleyi, ərzaq, yoxsulluq, enerji, demoqrafiya, miqrasiya təhlükəsizliyi ön plana keçir. Qlobal birliklərin, institutların qarşılıqlı əməkdaşlığı problemin həll olunmasına kömək edir.

Dövlətlər, beynəlxalq təşkilatlar, transmilli korporasiyalar və cəmiyyətlərarası əməkdaşlığın genişlənməsində qlobal amillər aparıcı yer tutur. Lokal, region və qlobal məkanların inkişaf səviyyəsində fərqlər aradan qalxır. Digər tərəfdən həmin coğrafi məkanlarda yaşayan əhalinin işlətdiyi əmək alətləri, istehsal vasitələri və texnologiyası arasında fərqlər aradan qalxır, eynilik, vahidlik, büiövlük yaranır.

Z.T.Qolenkova, M.M.Akuliç və V.N.Kuznetsov «Sosiologiyanın əsasları» kitabında yazmışlar: «Bəşəriyyətin böyük bir hissəsinin informasiya və telekommunikasiyanın ən yeni vasitələri əsasında maliyyə-iqtisadi, ictimai-siyasi və mədəni əlaqələrin vahid sisteminə daxil olmasını qloballaşma adlandırmaq olar» (1, 457). Qloballaşma cəmiyyət həyatının bütün sferalarına, iqtisadi, sosial, siyasi və mədəni həyatının bütün sahələrinə təsir edir. Lakin qloballaşma bütün dünyanı əhatə etməmişdir. Qloballaşma prosesində yüksək texnikaya, texnologiyaya, informasiya vasitələrinə malik olan ölkələr iştirak edir. Bu ölkələrin nəqliyyat, informasiya, ticarət, maliyyə, kommunikasiya sahəsində əməkdaşlığı güclənir.

İnformasiya və kommunikasiya texnologiyalarının indiki vəziyyəti bütün dünyanın fikir və düşüncələrini birləşdirmiş və standartlaşdırmışdır. Müasir qloballaşma prosesində insanlarda informasiya almaq onu təhlil etmək və başqalarına ötürmək qabiliyyəti yaradır. Müasir texnologiyanın əsasında vahid informasiya məkanının formalaşması, cəmiyyətin transformasiyası baş verir. Qlobal təsir nəticəsində elmin inkişafına geniş şərait yaranır, yeni kəşflərin nəticələrindən bütün ölkələr bəhrələnir. Qlobal təsir nəticəsində elmi kəşflər genişlənir, nəzəriyyələr meydana gəlir, yeni texnoloji sivilizasiyanın əlamətləri formalaşır, Qloballaşma cəmiyyətin sosial tərəqqisinin mühüm amilidir. Bu proses dövlətlərin bir-biri ilə əməkdaşlığı nəticəsində baş verir.

İ.K.İonov qloballaşma nəticəsində yaranan tərəqqinin iki mühüm istiqamətini göstərir. *Birincisi,* cəmiyyətin əvvəlki müsbət tərəflərini, xüsusilə siyasi və mənəvi tərəflərini saxlayan mühafizəkarlıq yaranır, *ikincisi*, liberalizm qlobal səviyyədə demokratik dəyərlərin inteqrasiyasını, insan hüquq və azadlıqlarının qorunmasını nəzərdə tutur (2, 54). Birinci istiqamət milli dəyərlərin təhlükəsizliyinə, ikinci istiqamət milli dəyərlərin inteqrasiyasına üstünlük verir. Bu proses

özünü iqtisadi, siyasi və mənəvi sahələrdə də göstərir.

Qloballaşma dünyanın sivilizasiya dəyərlərinin inkişafı nəticəsində yaranır. Buna görə də, sivilizasiyanın ümumi dəyərləri qəbul edilməli və inkişaf etdirilməlidir.

Qloballaşma məkanında yeni sivilizasiya sistemi formalaşır. Yeni sivilizasiya həm də dünyanın təhlükəsizliyini təmin edir. Rusiyanın sosiologiya elmində belə bir fikir yayılmışdır ki, qloballaşma münaqişələri dərinləşdirir, məhəlli müharibələri genişləndirir. Halbuki, qloballaşmanın əsas məqsədi müasir dünyada baş verən münaqişələrin qarşısının alınmasından ibarətdir.

Qloballaşmanın yeni mərhələsində güclənən inteqrasiya meyli dövlətlərarası münasibətlərdə yeni modellərin meydana gəlməsinə səbəb olur. Külli miqdarda vəsait tələb edən beynəlxalq layihələr hazırlanır və həyata keçirilir. Beynəlxalq layihələrin hazırlanmasında milli marağı olan güclü dövlətlər iştirak edir. İqtisadi, siyasi, mədəni, texnoloji sahədə əməkdaşlıq qloballaşma məkanını formalaşdırır. Qloballaşma lokal və regional fərqləri aradan qaldırır. Qloballaşma qanunauyğun prosesdir, lakin bu prosesdə dövlətlər, qabaqcıl təşkilatlar, transmilli korporasiyalar, yüksək iqtisadi, siyasi təfəkkürə malik olan insanlar iştirak etdiyinə görə düzgün, məqsədyönlü istiqamətdə həyata keçirilir. Əgər düzgün həyata keçirilməsə, dünyada qloballaşmaya qarşı mənfi münasibət yarana bilər. Xüsusilə də, lokal və regional coğrafi mühitdə yaşayan əhali mərkəzi dövlətlərlə əməkdaşlıqdan uzaqlaşa bilərlər. Bəzi elmi ədəbiyyatda belə bir fikir yaranıbdır ki, qloballaşma ancaq qərb modeli əsasında həyata keçirilib. Qərbin (ABŞ və Avropa) beynəlxalq araşdırma mərkəzlərində şərq ölkələrinin də görkəmli alimləri işləyirlər və qloballaşmaya dair öz töhvələrini verirlər. ÇXR, Yaponiya, Cənubi Koreya kimi dövlətlərdə də qlobal layihələr hazırlanır və bunların bir çoxu qərb ölkələri tərəfindən qəbul edilir. Digər tərəfdən, qloballaşmanın faktoru yalnız dövlət deyildir. Qeyri-hökumət orqanları, ictimai təşkilatlar, cəmiyyətlər də qloballaşmada iştirak edir. Digər tərəfdən, heç bir dövlət məcbur edilmir ki, qərb modelini olduğu kimi qəbul etsin. Hər bir dövlət regional və milli mənafeyi nəzərə almaqla qloballaşma prosesində iştirak edir. Bir qrup qərb nəzəriyyəçilərinin fikrinə görə eyni tipli cəmiyyətlər arasında siyasi münaqişələr aradan qalxır, dostluq və əməkdaşlıq münasibətləri yaranır. Bu münasibətlər nəticəsində qlobal və milli mənafelərin təhlükəsizliyi təmin edilir. Çin, Hindistan, Yaponiya cəmiyyətləri müxtəlif olduğuna görə onların arasındakı ziddiyyətləri aradan qaldırmaq qeyri-mümkündür. Avropa dövlətləri isə yaranan ziddiyyətləri konsensus yolu ilə aradan qaldırır. Bu baxımdan qloballaşmada Avropa dəyərlərinə üstün yer verilir. Müasir qloballaşma prosesində Avropanın milli təhlükəsizliyi təmin edilmişdir. «Avropa evinin» təhlükəsizlik məsələsi digər regionlarda nümunə ola bilər. Bu nümunənin qloballaşma prosesi Asiya, Afrika, Latın Amerikası dövlətlərinin də fəal iştirakı ilə həll oluna bilər. İqtisadi, siyasi inteqrasiya dövlət sərhədinə əvvəlki baxışları dəyişdirir.

Qloballaşmanın müsbət və mənfi amilləri sosiologiyada qarşılıqlı vəhdətdə tədqiq edilməlidir. Qloballaşmanın müsbət tərəfləri qəbul edilməli, mənfi təzahürlərinin aradan qaldırılması üçün dünya dövlətlərinin birgə fəaliyyəti yaradılmalıdır. Qloballaşmanın hərtərəfli inkişafını sosial fəlsəfə elmi ümumiləşdirə bilər. İlk növbədə, dünya dövlətlərinin yaxınlaşması, qovuşması, vahid dünya dövlətinin formalaşması mümkündürmü? İnkişafın bu istiqamətinin əhəmiyyəti və

başqa məsələlər sosial fəlsəfə tərəfindən hazırlana bilər.

«Qlobal dünya» dedikdə, ilk növbədə, dünya əhalisinin yaşamaq problemləri, təhlükəsizlik nəzərdə tutulur. «Qlobalizm» isə bu məqsədi həyata keçirmək üçün yaranan nəzəriyyələrdir. Qloballaşma isə dünya ölkələrinin yaxınlaşması, inteqrasiyası təhlükəsizliyi və idarə olunması problemlərinin həll olunmasını nəzərdə tutur. Qloballaşma fəlsəfi problemlərin həll olunması tələbini irəli sürür. Dünya vahiddir, bütövdür, onu parçalamaq olmaz. Sosial dünya da belədir, lakin müharibələr, qarşıdurmalar qlobal dünyanı parçalayır. Nəticədə sosial dünyanın inkişaf qanunauyğunluğu ləngiyir. Sosial dünyada baş verən mənfi proseslər qlobal təbiətə mənfi təsir edir. Sosial dünya insanların real arzularının həyata keçməsidir. Real arzular məqsədyönlü fəaliyyətə çevrildikdə cəmiyyət tərəqqi yolu ilə inkişaf edir. Qloballaşma yeni elm sahəsidir. Gələcəkdə fəlsəfi elm, onun müxtəlif tərəfləri, anlayışları elmi cəhətdən tədqiq ediləcəkdir. Xüsusilə Azərbaycan gerçəkliyində az tədqiq edilən sahədir. Qloballaşmanın sistemli təhlilini bir elmi tədqiqatda vermək çətindir. Çünki qloballaşma yeni, mürəkkəb və ətalətli prosesdir. Onun tərəfləri müxtəlif elmlər tərəfindən işlənilməlidir, lakin fəlsəfi elm idrakın köməyi ilə qlobal prosesləri ümumiləşdirə bilər. Digər elmlərin əldə etdiyi elmi nəticələr qloballaşma prosesini ümumiləşdirir və sistemləşdirir. Qloballaşma həm də elmin birliyini, bir-birinə diffuziyasını, inteqrasiyasını yaradır.

E.Q.Koçetkovun fikrinə görə qloballaşma yeni intibah dövrünün əsasını qoyur. Qloballaşmanın məzmununda iqtisadi, siyasi, sosial, hərbi təhlükəsizlik, əxlaq və başqa sahələr birləşir (3, 84).

Qloballaşma yaranan problemlərin dünya dövlətləri, beynəlxalq təşkilatlar, elmi idarələr tərəfindən birgə həll edilməsi tələbini irəli sürür. Müxtəlif dövlətlərdə olan siyasi təşkilatlar, institutlar, ictimai təşkilatlar, sosial birliklər, transmilli korporasiyalar qloballaşma prosesində fəaliyyətlərini əlaqələndirirlər.

Müasir elmi-texniki tərəqqi şəraitində dünyada qloballaşma prosesi cəmiyyətin bütün sferalarını əhatə edir. İnsanın dünyagörüşü yeni sərvətlərlə zənginləşir və ümumi inkişaf qanunauyğunluğunu daha dərindən dərk edir. İntellektual səviyyə insana imkan verir ki, damla-damla toplanaraq böyük sivilizasiyalara cevirilən mədəniyyəti hərbi millitarizləşmə siyasəti ilə məhv etmək olmaz. Millitarist təfəkkürdə ancaq müharibə, işğalçılıq siyasəti hökm sürür. Onların «cırtdanları» «dənizdən-dənizə», titanları isə qlobal imperiya yaratmaq istəyirlər. Dünya birliyi bunların qarşısını almalı, insan ağlını əsas götürərək sosial, iqtisadi inkişafa üstünlük verməlidir. Yeni reallığı əks etdirmək qlobal inkişafa təsir edən amilləri müəyyənləşdirmək sosiologiyanın qarşısında duran mühüm problemdir.

Qloballaşmanın inkişafı nəticəsində informasiya cəmiyyəti formalaşır. Müxtəlif mədəniyyətlərin və sosial sistemlərin qarşılıqlı təsiri bütöv, qlobal sistemin formalaşması prosesi başlayır.

Müasir dövrdə qloballaşmanın xarakterik cəhətləri aşağıdakılardır:

– informasiya və kommunikasiya bir-birindən uzaq məkanda yaşayan xalqları yaxınlaşdırır;

– iqtisadi inteqrasiya genişlənir, böyük geoiqtisadi məkan formalaşır;

– müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri nəticəsində vahid dünya mədəniyyəti formalaşır;

– beynəlxalq əmək bölgüsünün yaranması qlobal iqtisadi inkişafa güclü təkan verir;

– yeni texnologiyanın geniş tətbiq edilməsi nəticəsində cəmiyyətin sosial strukturu dəyişir;

– vətəndaş cəmiyyəti və hüquqi dövlət formalaşır;

– ictimai həyatın modernləşdirilməsi və demokratik dəyərlərin inkişafı baş verir;

– milli, etnik qapalılığın aradan qaldırılması, müasir sivilizasiya məkanına qoşulmaq siyasətinə üstünlük verilir;

– transmilli korporasiyaların genişlənir.

Qloballaşma haqqında qərb sosiologiyasında fikirlər aşağıdakıları əhatə edir:

1) qloballaşma dünya dövlətlərini əhatə edən yeni iqtisadi, siyasi və sosial sistemin formalaşmasıdır;
2) nəqliyyat, kommunikasiya, informasiya milli dövlət nəzarətindən çıxır, onlar qlobal qurumlar tərəfindən idarə olunur;
3) milli dövlətin bəzi funksiyalarının, qlobal təşkilatlar tərəfindən yerinə yetirilərkən milli təhlükəsizlik funksiyası gücləndirilir;
4) xarici, daxili informasiya sərhədləri genişləndirilir;
5) «Qlobalizm» ideologiyası formalaşır. Bu ideologiya dünyanın qərb qaydası əsasında qurulmasını təbliğ edir.

Qloballaşma yalnız bu gün üçün deyil, həm də gələcək dəyişikliyi nəzərdə tutur. Bu dəyişiklik iqtisadiyyatın beynəlmiləlləşməsini, beynəlxalq əlaqələr sisteminin yaranmasını qeyri-hökumət transmilli birliklərinin genişlənməsi, o cümlədən diaspor, dini hərəkatların və mafioz qrupların hərəkatının güclənməsi, nüvə silahının təhlükəsizliyi, mədəniyyətin taleyi də qlobal problemə daxildir.

Qloballaşma prosesini tədqiq edən sosioloqları üç qrupa bölmək olar:

1. Qloballaşmaya müsbət, nikbin yanaşma.
2. Qloballaşmanın həm müsbət, həm də mənfi nəticələr törətməsi.
3. Qloballaşmanın mənfi hadisə olub, bəşəriyyəti məhvə doğru aparması.

**Birinci qrupun** tərəfdarlarına görə qloballaşma yalnız cəmiyyətin iqtisadi sahələrini deyil, həm də siyasi, sosial və mənəvi sahələrinin idarəedilməsini və inkişafını yüksəldir. Onların fikrinə görə, iqtisadiyyatın, ticarətin liberallaşdırılması əxlaqi normaları liberal sərvətlərlə zənginləşdirir. Qloballaşma siyasi idarəetmənin demokratikləşməsinə, vətəndaş cəmiyyətinin yaranmasına geniş imkanlar açır. İnsanların hüquq və azadlığı beynəlxalq səviyyədə qorunur. Qeyri-hökumət təşkilatları hüquq və azadlığın qorunmasına nəzarət edir.

**İkinci qrup** – tədqiqatçılar qloballaşmanın müsbət nəticələri ilə yanaşı, mənfi nəticələrini də göstərirlər. Onların fikrinə görə, mənfi nəticələr dünya dövlətlərinin birliyi ilə aradan qaldırıla bilər. Hələlik dünya birliyi zəif və ziddiyyətlidir.

**Üçüncü qrup** – pessimistlər qloballaşmanı ancaq mənfi proses hesab edirlər. Onların fikrinə görə, qloballaşmada ancaq ABŞ-ın, Fransanın, Almaniyanın, Böyük Britaniyanın, Yaponiyanın 200 transmilli şirkəti qazanc götürür. Dünyanın əksər ölkələrində aclıq, yoxsulluq hökm sürür.

Qloballaşma geniş, müxtəlif istiqamətli prosesdir. Onun əsas istiqamətlərindən biri iqtisadi qloballaşmadır. Siyasi qloballaşma elmin yeni sahəsi olduğuna görə, onun tədqiqat sahəsində də müxtəlif fikirlər meydana gəlir. Qloballaşma əsasən iki istiqamətdə tədqiq edilir: birincisi, müsbət istiqamətlər, ikincisi, qloballaşmanın törətdiyi fəsadlar. Müasir

qloballaşma təzadlı bir dövrə təsadüf edir. Bu dövr varlı və kasıb, dünyada ağalıq edən və tabe olan dövlətlər arasında ziddiyyətli bir dövrdür. Məhz buna görə də, qlobalizm ilə antiqlobalizm arasında mübarizə gedir. Qloballaşma prosesinin üstün cəhəti ondan ibarətdir ki, bu prosesə elm, texnika və yüksək texnologiyaya malik olan dövlətlər rəhbərlik edir. Digər tərəfdən, qloballaşma yüksək sivilizasiyaya, sosial-mədəni inkişafa və informasiya cəmiyyətinin üstünlüyünə əsaslanır. Qlobal yanaşma dünyanın qlobal problemlərini həll etməyə imkan verir. Sivilizasiyaların müqayisəli təhlili, dialoq aparılması problemin tədqiqi üçün düzgün metoddur.

Qloballaşma təhlil edilərkən məkan və zaman problemi nəzərə alınmalıdır. Belə ki, Avropa məkanı ilə digər ərazilərdə qloballaşma prosesi arasında fərqli cəhətlər vardır. Yaxud, zamana görə fərq – XX əsrin 90-cı illərində baş verən qloballaşma əvvəlki illərin qloballaşma prosesindən fərqlənir. Müasir qloballaşma Avropanın özündə gedən sosial, siyasi proseslərlə çulğalaşır.

Qloballaşma iqtisadiyyat sahəsində daha uğurla həyata keçirilir. Dünya dövlətlərinin iqtisadi inkişafına, beynəlxalq münasibətlərdə dəyişikliyə güclü təsir edir. Nəticədə vahid dünya qaydaları formalaşır (4, 219).

Coref E.Stiqlits (ABŞ) yazmışdı: «Qloballaşma dünya əhalisi və ölkələrinin daha sıx inteqrasiyasıdır və o, nəqliyyat və rabitə xərclərinin əhəmiyyətli dərəcədə azaldılması, mal, xidmət, kapital, bilik və əhalinin ölkələr arasında sərbəst hərəkət etməsinin qarşısını alan süni maneələrin aradan qaldırılması nəticəsində meydana çıxmışdır» (5, 10).

Qloballaşmanın «Amerika modeli» ilə «Asiya modeli» bir-birindən fərqlənir. «Asiya modeli»ndə dövlət azad bazarların yaradılmasında, müəyyən bir sistem halına gətirilməsində, idarə edilməsində, habelə yeni texnologiyaların yaradılmasının stimullaşdırılmasında fəal iştirak edir və firmalar işçilərinin sosial rifahını yaxşılaşdırmaq məsuliyyətini öz üzərlərinə götürürlər (6).

Çin müstəqil inkişaf edən dövlət kimi qlobal böhranın təsirindən yan keçməyə çalışır. Cozef E.Stiqlits yazmişdi: «Çin iqtisadiyyatı siyasi və ictimai sabitlik arasındakı əlaqədən xəbərdar idi. Çin BVF-nin yeritdiyi siyasətini öz adətinə uyğun olaraq nəzərdən keçirmiş, qarşılıqlı makroiqtisadi siyasətin sistemli nəticələrini tam dəyərləndirmişdir <...>. Şərqi Avropa ölkəsi olan Çin BVF-nin mövqeyinə əks olan bir mövqe tutdu» (5, 143-144).

Cozef E.Stiqlitz Rusiyanı belə təsvir edir: «Keçmiş sovet ittifaqı əhalisinin əksəriyyətinin fikrinə əsaslanaraq kapitalizmdəki iqtisadi həyatından kommunist rəhbərlərinin vəd etdikləri iqtisadi həyat daha pis olmuşdur».

Qloballaşma güclü dövlətlərin mənafeyinə uyğun həyata keçirildiyini zəngin təbii ehtiyata malik olan dövlətlərin təbii sərvətlərinin talanmasına, işsizliyin artmasına, ekologiyanın pozulmasına səbəb olur. Buna görə də, dövlətlərarası müqavilələr bərabər əməkdaşlıq, bərabər hüquq əsasında bağlanmalıdır. Qloballaşma prosesində ikitərəfli müqavilələr əsasında təhlükəsizliyin təmin edilməsi çətindir. Qlobal təhlükəsizlik çoxtərəfli olmalı və bütün dövlətlərin milli maraqlarını əhatə etməlidir. Çoxtərəfli təhlükəsizlik nəticəsində beynəlxalq təhlükəsizlik sistemi yaranır. Qloballaşma nəticəsində Avropanın təhlükəsizlik sistemi yaradılmışdır. Dünyanın digər regionlarında da təhlükəsizlik sistemlərinin yaradılması mümkündür. Qloballaşma

dünyadakı təhlükəli problemlərin həll edilməsinə imkan verir: xüsusilə, planetin problemlərinin həll edilməsi, elmi nailiyyətlərin genişlənməsi imkanını.

Qloballaşma nəticəsində liberal iqtisadiyyat dünyanın bir çox bölgələrində qərarlaşmışdır. Müasir qloballaşmada güclü dövlətlərin məqsədi dünya iqtisadiyyatına, xüsusilə enerji ehtiyatları sahələrinə nüfuz etməkdən ibarətdir. İnkişaf etmiş ölkələr geridə qalan ölkələrin iqtisadi dirçəlişinə kömək edir. İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef E.Stiqlits yazmışdı: «Qloballaşma dünyanın digər bir aspekti olan beynəlxalq yardımlar bütün uğursuzluqlara baxmayaraq, milyonlarla insan həyatının yaxşılaşdırılmasına gətirib çıxarmışdır» (5, 5).

Dünya bankının layihəsi əsasında bir çox geridə qalan ölkələrin təhsil sahələri yenidən qurulmuş, savadsızlıq aradan qaldırılmışdır.

Digər dövlətlər də qloballaşma prosesində özlərinin təhlükəsizliyini təmin etməlidir. Bu cəhəti nəzərə alaraq tarix elmləri doktoru Ə.Həsənov yazmışdı: Hər bir dövlət özünün milli təhlükəsizliyi ilə bilavasitə bağlı olan resurslarını – müdafiə, ərzaq, ekoloji, mənəvi, informasiya, ictimai və s. qorumağı, yaşatmağı və idarə etməyi bacarmalı və ölkə ərazisinə gələn hər bir subyektə də buna hörmətlə yanaşmağı tələb etməlidir. Bunun üçün dövlətin milli siyasəti olmalıdır (7, 162).

Sosializm sistemi dağıldıqdan sonra dünyanın yenidən nizamlanması prosesi başlandı. Dünyanın yenidən nizamlanması qloballaşma ilə sıx bağlı olan prosesdir.

M.Valzer «Yer kürəsinin idarə olanması» adlı məqaləsində qloballaşma ilə yeni nizamlanmanın vəhdətini göstərmişdir (8).

Dünya birliyinin vahid mərkəzdən idarə olunması haqqında nəzəriyyə qloballaşma prosesinin əsas nəzəriyyələrindən biridir. Vahid mərkəz tərəfindən idarəetmədə insanlar eyni əxlaqi normalara cavab verir və eyni məsuliyyəti daşıyırlar. İ.Kant «Dünya respublikası» nəzəriyyəsində, E.Tofler «Üçüncü dalğa» kitabında dövlətlər arasında münasibətlərin tənzim edilməsi məsələlərinin əhəmiyyətini göstəriblər.

Vahid mərkəzdən idarə edən dövlət beynəlxalq aləmdə baş verən anarxiyanın qarşısını alır, dünyanın nizamlanması qaydasını yaradır. Dünyanın idarə olunması modellərindən biri vahid mədəniyyətin və vətəndaşlığın olması modelidir (9, 423). Digər model güclü dövlətin zəif dövlətləri müharibə vasitəsi ilə özünə tabe etməsi və dünya imperiyasının yaradılması modelidir. Müasir dünyanın idarə olunması bu iki istiqamətdə mübarizə əsasında həyata keçirilir. Dünyanın bir çox dövlətləri qloballaşma prosesində birinci modelə üstünlük verir. Çünki müharibələr daha ağır fəlakətlərlə, insan qırğını ilə nəticələnir.

Demokratik prinsiplər əsasında qloballaşma modelində vətəndaş cəmiyyətinə, beynəlxalq insan hüquqlarının qorunmasına üstünlük verilir.

Demokratik qloballaşma modellərindən biri də regionların federasiya halında təşkil edilməsidir. Avropa İttifaqı bu modelə misal ola bilər. Avropada bu modelin yaranması nəticəsində sabitlik, qarşılıqlı əməkdaşlıq yaranmışdır. Regional federasiyada ziddiyyətlər konsensus yolu ilə həll edilir. Xristian Avropasını xaosdan demokratik konstitusiya qanunlarının qəbul edilməsi və onlara əməl olunması çıxartdı. Çində cəmiyyətdəki münasibətləri Konstitusiya qanunu və Konfusi etikası nizamlayır. Konstitusiya, konvensiya müxtəlif mədəniyyətləri vahid hüquqi sistemdə birləşdirir. Demokratik qanuna

əməl edilməsi, qanun qarşısında hamının bərabərliyi təhlükəsiz yaşamağın BMT tərəfindən qəbul edilən «Ölkələrin və sivilizasiyaların qarşılıqlı fəaliyyət xartiyası»nda insan hüquqlarının qorunması, vətəndaş etikasına əməl olunması, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi qanun qarşısında bərabərlik prinsipinə əməl olunması məsələləri irəli sürülmüşdür (9, 434). Müxtəlif sivilizasiyaların yaxınlaşması isə qlobal təhlükəsizliyin başlıca şərtidir.

Müasir qloballaşma üç istiqaməti əhatə edir: *birincisi*, dövlətlərin bir-birinə iqtisadi, informasiya, mədəniyyət sahələrində yaxınlaşması və qarşılıqlı əməkdaşlığı; *ikincisi*, ABŞ-ın hegemonluq siyasəti nəticəsində kapitalın geriyə axını; *üçüncüsü*, transmilli korporasiyaların qlobal fəaliyyəti.

Müasir qloballaşma və informasiya iqtisadi amillərə daha çox üstünlük verir. İqtisadi mədəniyyət qloballaşma tərəfdarları «Davos mədəniyyəti» ideyasını irəli sürürlər. Onların fikrinə görə, qloballaşmanın bu istiqaməti iqtisadiyyatı, beynəlxalq kapitalın təsirini, kütləvi mədəniyyət tələbatını və yevangeliya protestantizmini əhatə edir (10, 9).

D.Berger və S.Hantinqtona görə, mədəniyyətin qloballaşması milli mədəniyyətləri dağıdır, onun ümumi cəhətlərini qlobal dünyada yayır (10, 9).

Cəmiyyət daxili strukturuna görə müxtəlif sosial təbəqələrdən, etnik qruplardan, siniflərdən, demoqrafik qruplardan ibarətdir. Sosial qrupların toplum halında fəaliyyətini hüquqi qaydalar və əxlaqi normalar nizamlayır. Siyasət vasitəsilə toplumun fəaliyyəti istiqamətləndirilir. Siyasət toplum ilə dövlət arasında münasibətləri qərarlaşdırır. Buna görə də, siyasət reallığı düzgün əks etdirməlidir. Beynəlxalq siyasət isə dövlətlər, trasmilli korporasiyalar arasında münasibətləri əhatə edir. Beynəlxalq münasibətlər prosesində yaranan qloballaşma toplumların, sosial qrup və təbəqələrin mənafeyinə cavab verməlidir. Əgər sosial qrupların mənafe tələbatları ödənilmirsə, qloballaşmaya qarşı narazılıq yaranır.

Qloballaşma prosesinin proqnozlaşdırılması təzadların qarşısının alınmasına kömək edir. Qloballaşma şəraitində kəskin sosial-siyasi münaqişələr və kəskin təbiət hadisələri baş verir. İstər sosial, istərsə də təbiətdə baş verən təhlükələrin qarşısını almaq üçün elmi proqnozlaşdırmaya ehtiyac yaranır. Gələcəkdə hansı təhlükələrin olacağını söyləmək əsas şərt deyil, əsas şərt gözlənilən təhlükələrin qarşısını almaq üçün elmi proqnozlaşdırmanın hazırlanmasıdır. Qloballaşma şəraitində proqnozlaşdırma elmi informasiya ilə zənginləşir.

XX əsrin 60-cı illərindən sonra qloballaşmanın genişlənməsi ilə əlaqədar olaraq proqnozlaşdırma sosial həyatın müxtəlif sahələrini əhatə etdi.

Qloballaşma tarixi dinamik dəyişən vahid inkişaf prosesi kimi qəbul edir. Bu prosesdə xalqlar bir-birilə yaxınlaşır, iqtisadi, sosial, siyasi və mədəni cəhətdən inteqrasiya prosesinə daxil olur. Vahid inteqrasiya məkanı mürəkkəb dünyanın iqtisadi və siyasi proseslərinə həlledici təsir göstərir, lakin qloballaşma prosesində güclü dövlətlərin zorakılıq siyasəti nəticəsində gənc milli dövlətlər zəifləyir, iqtisadi, geosiyasi, sosial cəhətdən təsir altına düşürlər. Yeni maliyyə və iqtisadi, siyasi böhran inkişaf etməkdə olan ölkələrdə əhalinin sosial vəziyyətini daha da ağırlaşdırır.

Bildiymiz kimi, hər bir hakimiyyət konstitusiya hüquqi normaları

ilə tənzimlənir. Qloballaşmada hegemonluq siyasəti hüquqi normalardan кənara çıxır. Dünyanın inкişafına bu cür yanaşdıqda sosial-darvinist təhlilə haqq qazandırdıqda liberallaşma кonsepsiyalarının arasında əhəmiyyəti aşağı düşür (11, 4). Qloballaşma sosial təbii proses olduğuna görə onun aradan qaldırılması qeyri-mümкündür. Laкin qloballaşma prosesində hər bir milli dövlət öz varlığını, milli dəyərlərini və təhlüкəsizliyini qorumaq imкanlarını yaratmalıdır. Qloballaşmanın təhlüкə törədə biləcəк fəsadlarını aradan qaldırmaq üçün onun cəmiyyətə təsir meylini proqnozlaşdırmaq vacib şərtlərdən biridir. Qloballaşma prosesinin aşağıdaкı istiqamətlərdə proqnozlaşdırılması gözlənilən təhlüкəli vəziyyətin qarşısını almaq üçün əhəmiyyətlidir: *birincisi,* qloballaşma prosesində yaranan texniкi sivilizasiyanın təbiətə təsiri; *iкincisi*, sosial-mədəni inкişafda əxlaqın vahid normalar halında formalaşması, milli-mənəvi dəyərlərin aradan qaldırması üçün ideoloji təbliğatın aparılması; *üçüncüsü*, cəmiyyətin gələcəyinin vahid qaydalar halında formalaşdırılmasına cəhdlər edilməsi; *dördüncüsü*, dövlətlər arasında iqtisadi, siyasi, milli etniк qruplar, assosasiyalar, elmi idarələr, qeyri höкumət orqanları arasında əməкdaşlığın genişləndirilməsi.

Qloballaşmanın proqnozlaşdırılması dünyanın formalaşan yeni vəziyyətinin araşdırılması imкanını yaradır. Qloballaşmanın sistemli proses кimi inкişaf istiqamətinin mahiyyətini onun, cəmiyyətin müxtəlif sferalarına inteqrastiv təsirini araşdırmaq və qloballaşmanın inкişaf istiqaməti ona təкan verən siyasi texnoloji mexanizmin fəaliyyətidir. Bu mexanizmin fəaliyyəti isə dünyanın enerji mənbələri və əlverişli geosiyasi məкanlara sahib olmaq dünya ağalığı uğrunda mübarizədə qalib gəlməк, daha çox qazanc əldə etməк tədəbatından irəli gəlir.

Beləliкlə, qloballaşma prosesi ümumi inкişafa təкan verməкlə yanaşı mənfi amilləri də meydana gətirir. İкinci paraqrafda mənfi amillərin yaranması səbəbləri tədqiq edilir.

## ƏDƏBİYYAT


1. Qolenкova Z.T., Aкuliç M.M., Kuznetsov B.N. Ümumi sosiologiya. Baкı: Diplomat, 2007, 494s.
2. Ионов И.К. Мировая экономика и международные отношения / Глобальный мич. М.: Мировая экономика, 2003, с.54-58
3. Кочетков Э.Г. Как нам ухватить «Гео» / Глобальный Мир. М.: Мировая экономика, 2005, с.84-92
4. Цыганков П.А.Теория международных отношений. М.: Гардианки, 2001, 590с.
5. Cozef E. Stiqlits. Qloballaşma və onun doğurduğu narazılıqlar (ingilis dilindən tərcümə). Baкı: İqtisadi İslahatlar Mərкəzi, 2004, 317s.
6. ABŞ-ın vitse-prezidenti Diк Çeyninin Azərbaycana səfəri. «Azərbaycan» qəz., Baкı, 4 sentyabr, 2008-ci il
7. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Baкı: Azərbaycan, 2005, 752s.
8. Walzer M. Governik tel Glol. Dissent / Fall 2000, p.44-52
9. Удовик С.Л. Глобализация. Селеиотические подходы. М.: Рефлвенк, Ваклир, 2002, 480с.
10. Василенко И.А. Политическая глобалистика. М.: Логос, 2000, 360с.
11. Панарин А.С. Глобальное политическое прогнозирование. М.: Алгоритм-Книга, 2002, 352с.

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ГЛОБАЛЬНЫХ ПРОЦЕССОВ И СОЦИАЛЬНЫЕ ИТОГИ

**А.И.КОСАЕВ**

**РЕЗЮМЕ**

В статье расскрываются основные направления глобальных процессов и социальные итоги. Дается подробный анализ детерминатора глобализации, его развитие, динамика и созданные им социальные итоги. Также анализируется геополитическая ситуация в постсоветсткий период в Азербайджане, процесс глобализации считается активным политическим фактором.

## THE MAIN DIRECTIONS OF THE PROCESS OF GLOBALIZATION AND ITS SOCIAL RESULTS

**A.I.KOSAYEV**

**SUMMARY**

The presented article deals with the main directions of the process of globalization and its social results. The article analyzes the determinators of globalization, its development dynamics and the social results.

The author studies the geo-political condition of Azerbaijan in post-Soviet period, and considers the process of globalization to be an active political factor.